07 (1364) 20-26 fevral 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AĞDAM RAYONUNDA SOSİAL LAYİHƏLƏR DAVAMLI ŞƏKİLDƏ HƏYATA KEÇİRİLİR



Azərbaycanda turizmin inkişafı istiqamətində mühüm işlər görülsə də, böyük turizm potensialına malik Qarabağ işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar Müzəffər Ali Baş Komandanın qətiyyəti və Ordumuzun rəşadəti sayəsində artıq düşmən tapdağından azad edilib. Qarabağın işğaldan azad olunmasından qısa müddət ötməsinə baxmayaraq, bu tarixi torpaqlarımızın dirçəldilməsi prosesi sürətlə davam etdirilir. Bu prosesdə diqqət yetirilən əsas sahələrdən biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanış olublar.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma hoteldə görülən işlər barədə məlumat verib. Bildirilib ki, "Hilton Garden İnn" hoteli Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunub.

Ümumi sahəsi 2,16 hektar olan hoteldə işlərin icrası 60 faiz yerinə yetirilib. "Hilton Garden İnn" hotelində 100-dən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Ağdam rayonunda ən müasir standartlara cavab verən hotellərin inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin inkişafına mühüm töhfə verəcək.

## İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRİMİZİN TURİZM POTENSİALI ARTIR




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Bulud" hotelinin açılışında iştirak edib.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Bildirilib ki, ümumi sahəsi 5325 kvadratmetr olan hoteldə 50 nəfər işlə təmin olunub. Qeyd edək ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulan əsas prioritetlərdən biri də məhz bu bölgədə turizmin müxtəlif növlərinin inkişafı üçün zəruri təminatların yaradılmasıdır. Artıq son illər bu istiqamətdə genişmiqyaslı işlər görülür. Füzuli və Zəngilanda yaradılan, Laçında tikintisi davam edən beynəlxalq hava limanları, inşa olunan müasir hotellər və həyata keçirilən digər infrastruktur layihələri azad olunan ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin bu bölgələrə cəlb edilməsində mühüm rol oynayacaq.

## AĞDAM REGİONAL RƏQƏMSAL İDARƏETMƏ MƏRKƏZİ ŞƏHƏRİN İNFRASTRUKTURUNUN ELEKTRİK ENERJİSİNƏ TƏLƏBATINI TAM ÖDƏYƏCƏK




*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib.*

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına Mərkəzdə görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, Azərbaycanın işğaldan azad edilən ərazilərində elektrik şəbəkələrinin qəza vəziyyətindən çıxarılması, enerji təhlükəsizliyinin təmin olunması və yaradılacaq infrastrukturların elektrik enerjisi ilə təchizatı üçün "Azərişıq" ASC tərəfindən genişmiqyaslı təmir, yenidənqurma və tikinti işləri aparılır. Ağdam şəhərinin Baş Planına uyğun olaraq, şəhər ərazisində 35/0,4 kilovoltluq iki transformator məntəqəsi inşa edilib. Bu məntəqələr güc mərkəzləri olaraq, ilk mərhələdə ətrafda salınacaq yeni yaşayış sahələrini elektrik enerjisi ilə təmin edəcək. Şəhərdə Baş Plana uyğun yaradılacaq müxtəlif təyinatlı infrastrukturun keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunması məqsədilə Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi həyata keçirilib. Prezident İlham Əliyev tərəfindən 2023-cü il mayın 2-də təməli qoyulan bu Regional Rəqəmsal İdarəetmə Mərkəzi yüksək səviyyədə inşa olunub. Regional Rəqəmsal İdarəetmə Mərkəzinin elektrik təchizatı üçün 110/35/10 kilovoltluq "Ağdam-2" yarımstansiyasından 35 kilovoltluq hava-kabel xətti çəkilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam Muğam Mərkəzində görülən tikinti işləri ilə tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də "Ağdam Residence" yaşayış kompleksində yaradılan şəraitlə tanış olublar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasında aparılan tikinti işləri ilə tanış olublar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhər 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə tanış olublar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə tanış olublar. Bildirilib ki, Əsgəran qala-kompleksinin dizayn layihəsi "Mədəni və təbii irs", "İnfrastruktur və xidmətlər", "Əyləncə və istirahət", "Marketinq və təşviqat" olmaqla, 4 istiqaməti əhatə edən konsept üzrə hazırlanıb. Layihəyə əsasən, qalanın konservasiyası, möhkəmləndirilməsi, arxeoloji qazıntıların aparılması və açıq səma altında tarixi parkın yaradılması nəzərdə tutulur.

## XANKƏNDİDƏ ZƏFƏR PARKI ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN TAM BƏRPASININ RƏMZİDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib.

Dövlət başçısı Xankəndi şəhərində Zəfər parkının təməlini qoyub.

Qeyd edək ki, ölkəmizin müxtəlif bölgələrində, o cümlədən Xankəndi şəhərində yaradılacaq Zəfər parkı tarixi Qələbəmizin yaddaşlarda yaşadılması, yaradılmış qəhrəmanlıq nümunələrinin əbədiləşdirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün mühüm əhəmiyyətə malikdir. Zəfər parkı Azərbaycanın gücünü, xalqımızın əzmini və azərbaycanlıların Vətən torpağına olan bağlılığını göstərən bir məkandır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, sonra kəndə köçən bir qrup sakinlə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub.

Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabriki yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır və ölkələrimiz arasında ənənəvi dostluq, qardaşlıq, iqtisadi tərəfdaşlıq əlaqələrini möhkəmləndirir.

## Baş nazir Xəzəryanı dövlətlər arasında iqtisadi-ticari əməkdaşlıqdan danışıb

Fevralın 18-də İran İslam Respublikasının paytaxtı Tehranda III Xəzər İqtisadi Forumu keçirilib. Forum iştirakçıları əvvəlcə Tehran Beynəlxalq Sərgisi çərçivəsində İnnovasiyalar və Texnologiyalar Evi ilə tanış olublar.

Sonra Xəzəryanı dövlətlərin hökumət başçıları məhdud tərkibdə danışıqlar aparıblar. Danışıqlarda Xəzərdə beştərəfli əməkdaşlığın bir sıra mühüm məsələləri nəzərdən keçirilib.

Daha sonra III Xəzər İqtisadi Forumunun plenar iclası olub.

Sessiyada çıxış edən Baş nazir Əli Əsədov bildirib ki, Xəzər İqtisadi Forumu Xəzəryanı dövlətlər arasında iqtisadi-ticari əməkdaşlığın aktual məsələlərinin müzakirəsi üçün mühüm platformadır. Bildirilib ki, 2022-ci ildə Moskvada keçirilmiş İkinci Forumun Birgə Kommünikesində ticarət dövriyyəsinin artırılması, regionun investisiya cəlbediciliyinin və Xəzəryanı dövlətlərin iqtisadi rəqabət qabiliyyətinin gücləndirilməsində tərəflərin maraqlı olduğu təsdiqlənib.

Ə.Əsədov Azərbaycan ilə Xəzəryanı dövlətlər arasında iqtisadi-ticari əməkdaşlığın dinamik inkişaf etdiyini diqqətə çatdırıb: "Sevindirici haldır ki, Azərbaycanın Xəzəryanı ölkələrlə ticarət dövriyyəsi 2024-cü ilin sonunda 6 faizdən çox artıb".

2018-ci ildə Aktauda imzalanmış Xəzəryanı dövlətlərin hökumətləri arasında iqtisadi-ticari əməkdaşlıq haqqında Sazişin 2023-cü ildə qüvvəyə minməsinin vacibliyini qeyd edən Ə.Əsədov bu Sazişin həyata keçirilməsinin ticarət, sənaye, kənd təsərrüfatı, turizm sahələrində və digər sektorlarda praktik tədbirlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

O, deyib: *"Xəzər dənizinin dayazlaşması məsələləri dövlətlərimizin başçılarının VI Xəzər Zirvə toplantısında hərtərəfli müzakirə mövzusuna çevrildi. Səbəblərin müəyyən edilməsi və dayazlaşmanın qarşısının alınması üzrə tədbirlərin müəyyən edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ekspert qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib".*

İşçi qrupunun ilk iclasını Bakıda təşkil etməyə imkan verəcək bütün zəruri razılaşmaların tezliklə başa çatacağına ümid ifadə olunub.

Plenar iclasın yekununa dair III Xəzər İqtisadi Forumunun Kommünikesi qəbul edilib.

# Президент Ильхам Алиев принял верительные грамоты новоназначенного посла Беларуси в нашей стране



13 февраля Президент Азербайджанской Республики Ильхам Алиев принял верительные грамоты новоназначенного чрезвычайного и полномочного посла Республики Беларусь в нашей стране Дмитрия Пиневича.

Посол вручил главе государства свои верительные грамоты.

Президент Ильхам Алиев побеседовал с послом.

Подчеркнув, что между нашими народами и странами налажены основанные на доверии дружественные связи, глава государства выразил удовлетворение развитием двусторонних отношений. Он отметил, что сейчас наши связи вышли на качественно новый уровень. Президент Ильхам Алиев сказал, что в настоящее время имеются хорошие возможности для расширения экономического сотрудничества, и в этом направлении обсуждается много проектов.

Глава государства коснулся значения регулярных контактов с Александром Лукашенко, напомнил о государственном визите Президента Беларуси в нашу страну и его участии в COP29, отметил, что все это способствует расширению нашего сотрудничества. Подчеркнув, что в ходе этих визитов были проведены очень плодотворные переговоры, касающиеся сотрудничества в различных сферах, Президент Ильхам Алиев отметил усилия по реализации обсужденных вопросов.

Глава государства пожелал послу успехов в деятельности.

Подчеркнув, что для него честь быть назначенным послом в Азербайджане, Дмитрий Пиневич с удовлетворением подчеркнул оказанные ему с первых дней пребывания в нашей стране высокое гостеприимство и внимание.

Посол отметил особую роль отношений между президентами Азербайджана и Беларуси в развитии двусторонних связей.

В ходе беседы состоялся обмен мнениями по вопросам углубления сотрудничества между нашими странами в сфере инновационных технологий, медицины, сельского хозяйства и в других областях, а также развития гуманитарных и культурных связей. Был затронут вопрос участия белорусских компаний в строительно-восстановительных работах на освобожденных от оккупации территориях Азербайджана.

# Председатель Совета Республики Национального собрания Беларуси посетила Центр Гейдара Алиева



18 февраля председатель Совета Республики Национального собрания Беларуси Наталья Кочанова посетила Центр Гейдара Алиева в Баку.

Гостье была предоставлена информация об архитектурном шедевре мирового уровня – Центре Гейдара Алиева. Было отмечено, что деятельность центра направлена на глубокое изучение и исследование богатого наследия общенационального лидера Гейдара Алиева, его философии государственности и идеологии азербайджанства.

В расположенном в центре Музее Гейдара Алиева в виртуальном формате представлены различные аспекты деятельности великого лидера как в советский период, так и в годы независимости Азербайджана.

Председатель Совета Республики Национального собрания Беларуси сначала осмотрела автомобили, находившиеся в официальном пользовании Гейдара Алиева с 1969 по 2003 год.

Гостью также заинтересовали экспонаты, фотографии и мультимедийные материалы, отражающие различные периоды деятельности Гейдара Алиева как во времена советской власти, так и в годы независимости.

Затем Наталья Кочанова ознакомилась с выставкой «Жемчужины Азербайджана», где представлены уникальные экспонаты, связанные с природными богатствами нашей страны, ее многовековой историей и культурным наследием.

Здесь экспонируются редкие образцы древних ремесел, в том числе азербайджанской школы ковроткачества, в оригинальной – звуковой форме представлены старинные музыкальные инструменты. Было отмечено, что посетители выставки также могут увидеть священные книги на различных языках.

После ознакомления с древними музыкальными инструментами гостья осмотрела выставку кукол и экспозицию «Танец узоров», где представлены азербайджанские ковры.

Посещение Центра Гейдара Алиева произвело на председателя Совета Республики Национального собрания Беларуси приятное впечатление.

# Наталья Кочанова: “Отношения между Беларусью и Азербайджаном основаны на многолетнем и проверенном временем взаимном доверии”



18 февраля председатель Милли Меджлиса Азербайджана Сахиба Гафарова встретилась с прибывшей в нашу страну с официальным визитом делегацией, возглавляемой спикером Совета Республики Национального собрания Беларуси Натальей Кочановой.

Как сообщили АЗЕРТАДЖ в отделе прессы и связей с общественностью парламента, сначала Наталья Кочанова ознакомилась с залом пленарных заседаний Милли Меджлиса.

Затем состоялась встреча спикеров парламентов двух стран один на один. После встречи гостья посетила Мемориальный зал Гейдара Алиева, ознакомилась с экспонатами и оставила запись в Книге памяти.

Далее состоялась встреча в расширенном формате.

Сахиба Гафарова высоко оценила не только официальный визит председателя парламента Беларуси, но и ее участие в 15-й пленарной сессии Азиатской парламентской ассамблеи (АПА). Она подчеркнула, что отношения между Азербайджаном и Беларусью основаны на искренности, доверии и дружбе.

Было отмечено, что за 32 года, прошедшие с момента установления дипломатических отношений между странами, сформировались прочные традиции двустороннего сотрудничества. Председатель Милли Меджлиса подчеркнула важную роль отношений высокого уровня между главами государств в развитии этих связей, добавив, что взаимные визиты на высшем и высоком уровнях, наряду с подписанием более 170 документов, способствуют дальнейшему укреплению двустороннего сотрудничества. Сахиба Гафарова выразила удовлетворение успешным сотрудничеством наших стран в международных организациях и их взаимной поддержкой на международных платформах.

В ходе беседы также с удовлетворением говорилось о текущем уровне межпарламентских связей, вносящих существенный вклад в развитие двусторонних отношений между нашими странами.

Сахиба Гафарова также рассказала гостье о деятельности Парламентской сети Движения неприсоединения, созданной по инициативе Президента Азербайджана Ильхама Алиева, а также о несправедливом отношении некоторых сил к Азербайджану в преддверии проведения в стране 29-й сессии Конференции сторон Рамочной конвенции ООН об изменении климата (COP29).

На встрече была дана высокая оценка широкому участию делегаций обеих стран в качестве наблюдателей на выборах, проведенных в Азербайджане и Беларуси.

Поблагодарив за приглашение совершить официальный визит в Азербайджан и принять участие в 15-й пленарной сессии АПА, Наталья Кочанова подчеркнула, что нынешние отношения между двумя странами основаны на многолетнем и проверенном временем взаимном доверии. Она отметила высокий уровень двусторонних связей в сферах экономики, торговли, культуры и других областях, подчеркнув особую значимость межпарламентского сотрудничества в этом контексте.

Наталья Кочанова подчеркнула, что Беларусь придает большое значение отношениям с Азербайджаном и нацелена на дальнейшее развитие двустороннего сотрудничества. Она поблагодарила азербайджанскую сторону за поддержку кандидатуры Беларуси на получение статуса наблюдателя в АПА и отметила актуальность вопросов, обсуждаемых в рамках этой организации.

В ходе встречи также состоялся обмен мнениями по другим вопросам, представляющим взаимный интерес.

# «Роль и позиция Каспийского региона в глобальной экономике чрезвычайно важны»




С учетом этого прикаспийские государства должны предпринять весомые шаги для укрепления взаимовыгодного сотрудничества.

Об этом заявил министр промышленности, рудников и торговли Ирана Мохаммад Атабак, выступая на III Каспийском экономическом форуме в Тегеране.

По его словам, правительство Ирана принимает необходимые меры для создания транспортного коридора между Каспийским морем и Персидским заливом, создает логистические центры и увеличивает перевалочную мощность портов. «Международные транспортные коридоры «Восток – Запад» и «Север – Юг» проходят по территориям прикаспийских государств. Для повышения их эффективности и увеличения объема грузоперевозок страны региона должны создать упрощенную цифровую таможенно-пропускную систему и активизировать сотрудничество в этой сфере. Прикаспийские государства также представлены в Организации экономического сотрудничества, в рамках которой можно обсуждать вопросы экономического взаимодействия и определять дальнейшие перспективы. Иран имеет сухопутные границы с двумя прикаспийскими странами – Азербайджаном и Туркменистаном – и активно сотрудничает с ними в сфере транспортного транзита. Наращивание этого сотрудничества сулит экономический рост для всех сторон», - отметил иранский министр, добавив, что существует огромный потенциал для экономического взаимодействия и со странами, с которыми имеются морские границы.

# Zərdabi yolunun layiqli davamçısı



*"Biz fəxr edə bilərik ki, milli mətbuatımızın böyük tarixi var. Bu, bizim böyük sərvətimizdir, dəyərimizdir".*

*İlham ƏLİYEV*

**ZİYAD SƏMƏDZADƏ, akademik:**
Bu günlərdə tanınmış jurnalist, tərcüməçi, publisist, Azərbaycan Jurnalistlər Birliyinin sədri (1989–2006) vəzifəsində çalışmış Azərbaycanın əməkdar jurnalisti, miilli mətbuatımızın görkəmli nümayəndəsi Hacı Hacıyevin 100 illiyini qeyd edirik. Dostum Hacı Hacıyev uzun illər - həm sovet dövrü, həm də müstəqillik illərində Azərbaycan jurnalistikasına sədaqətlə xidmət edib. Hacının uzun illər rəhbərlik etdiyi Azərbaycan Jurnalistlər Birliyinin fəaliyyəti hazırda onun qoyub getdiyi məktəbdir. Yadımdadır, o vaxtlar görkəmli dövlət xadimi, Baş nazir vəzifəsində işləyən mərhum Rəhim Hüseynov, Hacı müəllim və mənim aramda səmimi dostluq münasibətləri vardı. Tez-tez görüşür, müxtəlif məsələləri müzakirə edirdik. Hacı hər sahədən xəbərdar idi, hər məsələyə münasibətini açıq bildirərdi. Bu gün mən onun yoxluğunu daha çox hiss edirəm.

***Prinsipiallığı, qətiyyəti və insanlığı ilə iz qoyan Hacı Hacıyevin xatirəsi mənim və onu tanıyanların qəlbində daim yaşayacaq.***



# Azərbaycan milli jurnalistikasının ustad siması



**ELÇİN ŞIXLI, Azərbaycan Jurnalistlər Birliyinin sədri:**
– Bu il 150 illiyini qeyd edəcəyimiz Milli Mətbuat Gününün təsis olunmasının təşəbbüskarı Hacı Hacıyevin bu günlərdə 100 yaşı tamam olur. Hacı müəllim 1991-ci ildə AJB-nin sədri olaraq, rəsmi məktubla o vaxtkı prezident Ayaz Mütəllibova müraciət etmişdi. Məktubda bildirilmişdi ki, "Əkinçi" qəzetinin yaranma gününü Jurnalistika Günü kimi qeyd edək. Sonradan bu bayramın Milli Mətbuat Günü adlandırılmasına icazə verildi. Heydər Əliyev hakimiyyətə gələndən sonra Milli Mətbuat Günü dövlət səviyyəsində daha yüksək qədirbilənliklə qeyd edilməyə başlandı.
Hacı müəllim Azərbaycan jurnalistikasına uzun illər xidmət edib. O, daha öncə televiziyada da uzun müddət məhsuldar çalışıb. AJB-nin "Müxbir" jurnalının baş redaktoru olub. Həm də dünya miqyaslı bir sıra yazıçıların əsərlərini Azərbaycan dilinə tərcümə edib. O, həm sovet dövrü, həm də müstəqillik illəri üçün əsl jurnalistika məktəbi olub.
Hacı müəllim milli ruhu yüksək olan işıqlı şəxsiyyət, Azərbaycanın dövlət müstəqilliyinə qəlbən sevinənlərdən biri idi. Tarixçi olmadığı halda, onun Azərbaycan Xalq Cümhuriyyətinin liderləri, aparıcı simaları barədə ayrıca kitabı var. O, son dərəcə təvazökar, üzdə olmağı sevməyən bir ziyalı idi. Adi bir misal: Bu yaxınlarda Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində Hacı Hacıyevin 100 illiyi ilə bağlı toplantı keçirirdik. Mərasim üçün onun şəkillərini axtardıq və təsəvvür edin ki, daim ictimai-siyasi fəallığı ilə seçilən, əlinin altında çoxsaylı mətbu orqanlar olan Hacı müəllimin vikipediyada cəmi bir şəklini tapa bildik. Çalışacağıq ki, tezliklə həmin boşluğu dolduraq.

**RƏŞAD MƏCİD, Azərbaycan Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru:**



– Hacı Hacıyevi tələbəlik illərimdən tanıyıram. O, məni işləmək üçün radioya yönləndirmişdi. Ötən əsrin 90-cı illərində biz artıq "525-ci qəzet"i çap etməyə başlayanda Hacı müəllim mətbu orqanın baş redaktoru olaraq "Həsən bəy Zərdabi" media mükafatını mənə təqdim etdi. Bu, mənim aldığım mükafatlar içərisində ilk təltif idi. Bu yaxınlarda Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində Hacı Hacıyevin 100 illik yubileyində həmin mükafatı iftixarla göstərdim. O diplom fakültənin Mətbuat Şurası otağındadır, əziz xatirə kimi saxlayıram. Hacı Hacıyevin dövründə "Həsən bəy Zərdabi" mükafatı layiqli şəxslərə verilmişdi. Hacı müəllimlə tez-tez görüşür, mətbuatla bağlı tədbirlərdə rastlaşırdıq. Türk dünyasına dərin məhəbbət bəsləyən, maraqlı həmsöhbət, mətbuatımızın tarixinə bələd olan ziyalı idi. 2003-cü ilin martında Azərbaycan jurnalistlərinin I qurultayında Mətbuat Şurasının yaradılması ilə bağlı rəyasət heyətində ilk çıxışçılardan biri də Hacı Hacıyev idi. O zaman deyirdi ki, bu, jurnalistlərin ilk qurultayı deyil. Azərbaycan Jurnalistlər İttifaqı bu qurultaylar əsasında fəaliyyət göstərib. İndiki vaxtda düşünəndə 2003-cü ildə səhv etdiyimizi anlayıram. Çünki mətbuatımızda qurultayın tarixi daha keçmişə – ötən əsrin 50-ci illərinə gedib çıxır. 2003-cü ilə qədər Azərbaycan jurnalistlərinin bir neçə qurultayı olmuşdu.
Hacı Hacıyevin 100 yaşının qeyd olunması vəfa borcu, etibarlıq, minnətdarlıq borcudur.

**QULU MƏHƏRRƏMLİ, BDU-nun professoru, Əməkdar jurnalist:**
– Azərbaycanın 150 illik mətbuat tarixində bəzi jurnalistlər var ki, onlar daim yada düşür. İnsanlar şəxsiyyətinə, yaxşı qələminə görə yadda qalır. Hacı müəllim uzun illər teleradioda çalışıb, "Xəbərlər"in baş redaktoru olub. Bütün xəbərləri oxuyurdu, dinləyirdi, redaktə edirdi. Peşəkar idi, yaradıcılıq məsələsində güzəşt etmirdi. Hacı müəllim axına qarşı getməyi bacaran mərd adam idi. 90-cı illərdə Şah İsmayıl Xətai ilə bağlı bir eyforiya var idi. Bu məsələ ilə əlaqədar Hacı müəllim kəskin məqalə yazmışdı. Hamı heyran idi ki, bu



məlumatları haradan bilirdi. O, tarixə doğru baxmağı, düzgün qiymət verməyi bacaran şəxsiyyət idi. Hadisələrə konseptual baxışı var idi. "Həsən bəy Zərdabi" mükafatını verəndə də elə jurnalistləri seçirdi ki, əsl layiqlilər olsunlar. Bir müddət "Telefilm"in də direktoru işlədi. Onun dövründə orada çəkilən filmlərə baxın, hamısında millilik, mənəviyyat var. O vaxt film çəkilməsi üçün maliyyə problemi var idi. İndi hamısı var – pul da, texnika da. Amma o milli dəyərləri ifadə edə bilən filmlər yoxdur. Bu istək və bacarıq da yoxdur. Arzu edərdim ki, Hacı müəllim haqqında sənədli film hazırlayaq. Ümumiyyətlə, milli mətbuatın 150 illiyi ilə bağlı yaddaqalan bir iş görək. Hacı müəllimin "Gənc jurnalistlərə xitab" kitabı var. Mümkün olarsa, onu yenidən çap edək. Orada xəbər yazmaqla bağlı dərin tövsiyələr var.





**ƏFLATUN AMAŞOV, "Xalq qəzeti"nin baş redaktoru:**
Azərbaycan mediasının unudulmaz simalarından biri Hacı Hacıyevin anadan olmasının 100 illiyi milli jurnalistikamızın əsryarımlıq yubileyi ilində daha bir əlamətdar ictimai-mədəni hadisədir. Bu insanın sevgi-sayğı ilə xatırladığımız simasını bizim üçün dəyərli edən ustad jurnalistin misilsiz fədakarlığıdır.
Söhbət jurnalistikamızın da ölkəmiz kimi müstəqillik qazanıb azadlığa qovuşması yolunda göstərilmiş qeyrət və cəsarətdən gedir. Əlbəttə, söhbət həm də təpədən-dırnağadək milli təəssübkeşlikdən gedir.
Hacı müəllimin anadilli jurnalistikamızın təəssübkeşliyi ilə mənalanmış ömür yolu böyük Həsən bəy Zərdabi ənənələrinə sədaqət və xalqa sözlə xidmət nümunəsidir. Hacı Hacıyev peşə sevgisini peşəkarlıq məfkurəsinə çevirmiş media xadimidir. Azərbaycan milli jurnalistikasının bu ustad siması milli təəssübkeşliyin bənzərsiz örnəyini yaratmış qələm sahibi və jurnalistika təşkilatçısı idi.
Hacı Hacıyev jurnalistikaya milli ziyalılıq obrazı qazandırmış simadır. Bu obraz geniş yaradıcılıq diapazonu ilə seçilib. Həyatı azad sözün təntənəsi yolunda mübarizədə keçmiş bu söz fədaisi tərcümələri, sənədli-bədii əsərləri, filmoqrafiyası ilə mediamızın peşəkarlıq salnaməsini zənginləşdirib.
Hacı müəllim jurnalistikamıza həm də milli kübarlıq qazandırıb. Anadan olmasının 100 illiyi media təqvimimizin seçilən bir günü kimi qeyd edilən bu mətbuat fədaisini ehtiramla anmaq həm böyük qürur və fəxarətdir, həm də nəsillərə örnək olacaq qədirbilənlikdir. Uca Tanrıdan Hacı müəllimə rəhmət diləyir, xatirəsini böyük ehtiramla yad edirik!

**MİR ŞAHİN AĞAYEV, Real TV-nin baş direktoru, Əməkdar jurnalist:**
– Hacı müəllim mətbuatımızın ağsaqqalı idi. Hazırda mövcud olan Azərbaycan Jurnalistlər Birliyinə o dövrdə Hacı Hacıyev rəhbərlik edirdi. Bu birlik zamanında əhəmiyyətinə, əhatə etdiyi nüfuz miqyasına, təsir dairəsinə görə tamamilə fərqli təşkilat idi. O qurumun nüfuzu, xarizması Hacı müəllimlə bağlı idi. O dövrdə Jurnalistlər Birliyi də bütün ideoloji qurumlar kimi Lenin, kommunizm ideyalarına xidmət etməli idi. Hacı Hacıyev sovet dövrünün yetirməsi olsa da, o zamanın imkan verdiyi həddə çox demokratik adam idi.
Haqqı nahaqqa verməyən ziyalı idi. Onun dilindən kifayət qədər kəskin fikirlər də çıxırdı. Yeri gələndə ölkədəki siyasi sistemin nöqsanlı cəhətləri haqqında çox cəsarətli ifadələr işlətməkdən çəkinmirdi. Ümumiyyətlə, Hacı Hacıyevin xarakteri belə idi ki, o, həm jurnalistikanı, həm də jurnalistlərin cəmiyyətə təsir gücünü qoruyurdu.
Yadımdadır, o vaxt mətbu orqanların səhifələrində müxtəlif çatışmazlıqları ciddi şəkildə tənqid etməyə müəyyən imkan, icazə var idi. Məmməd Sadıq, Polad Qasımov, Rəfail Nağıyev, Hacı Hacıyev kimi dövrün ünlü jurnalistləri "Kirpi" jurnalı, "Kommunist" qəzeti kimi mətbuat orqanlarında çatışmazlıqları çox kəskin formada, iti qələmlə tənqid edirdilər. Bu adamları xatırladıqca gözümün qarşısına şəkillərdən ibarət "şərəf lövhəsi"



kimi möhtəşəm mənzərə canlanır. Bu lövhədə Hacı müəllim mərkəzdə dayanıb.
Hacı müəllim 100 ildə bir dəfə doğulan jurnalistimizdir. Ümid edək ki, növbəti 100 ildə də belə bir adam dünyaya gələcək…

# "Belarusla Azərbaycanın əlaqələri illərin sınağından çıxmış qarşılıqlı münasibətlərə əsaslanır"



Fevralın 18-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Sahibə Qafarova Belarus parlamentinin sədrinin rəsmi səfərlə yanaşı, həm də Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyasında iştirak etməsini yüksək qiymətləndirib. Eyni zamanda, Azərbaycan və Belarus arasında münasibətlərin səmimiliyə, etimada və dostluğa əsaslandığını diqqətə çatdırıb.

Bildirilib ki, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 32 ildə ikitərəfli əlaqələrdə fundamental ənənələr formalaşıb. Münasibətlərin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolunu vurğulayan Milli Məclisin sədri, ali və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin və imzalanan 170-dən artıq sənədin əlaqələrin daha da güclənməsinə xidmət etdiyini vurğulayıb. Sahibə Qafarova ölkələrimizin beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq etməsindən, beynəlxalq platformalarda bir-birinə qarşılıqlı dəstək verməsindən məmnunluğunu ifadə edib.

Görüşdə Azərbaycanda və Belarusda keçirilən seçkilərdə qarşılıqlı olaraq nümayəndə heyətlərinin geniş tərkibdə müşahidəçi qismində iştirak etməsindən razılıqla danışılıb.

# Asiya İnkişaf Bankı ilə dövlət-özəl tərəfdaşlığı layihələrinə dair təkliflər müzakirə olunub



İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Asiya İnkişaf Bankının özəl sektorun inkişafı üzrə regional direktoru, missiya rəhbəri Enriko Pinallinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlikdən bildirilib ki, görüşdə dövlət-özəl əməkdaşlığı çərçivəsində AİB ilə əməkdaşlıq yüksək qiymətləndirilib, enerji, ətraf mühit, infrastruktur, tranzit-logistika, rəqəmsal inkişaf və digər istiqamətlər üzrə icra olunan layihələrin əhəmiyyəti vurğulanıb.

AİB tərəfindən hazırlanmış müxtəlif sahələrdə dövlət-özəl tərəfdaşlığı layihələrinə dair təkliflər müzakirə olunub.

# Böyük Qayıdışa dair I Dövlət Proqramının 2024-cü il üzrə icrasının monitorinqi başa çatıb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı 2024-cü il üzrə monitorinq prosesini yekunlaşdırıb.

İİTKM-dən bildirilib ki, dövlət proqramının icrasının monitorinq nəticələri barədə məlumat verən İİTKM-in Sahəvi proqramların monitorinqi sektorunun müdiri Elşən Yusifli bildirib ki, tədbirlər planı çərçivəsində "Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili" prioriteti üzrə 2024-cü ilin sonuna 62 min hektardan artıq ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. 2024-cü il ərzində 1400-dən artıq ailə Laçın, Cəbrayıl, Füzuli, Şuşa və Xocalı şəhərləri, Laçın rayonunun Zabux və Sus kəndləri, Xocalı rayonunun Ballıca kəndinə köçürülüb.

Hesabat dövrü ərzində işğaldan azad edilmiş ərazilərdə 6 ümumi təhsil müəssisəsi fəaliyyətə başlayıb. Ərazilərin yüksəkgərginlikli elektrik enerjisi ilə təchizatı üçün 739 kilometr 110 kilovatlıq, 262 kilometr 330 kilovatlıq uzunluqda elektrik verilişi xətləri çəkilib. 11 ədəd 110 kilovatlıq, 1 ədəd 330 kilovatlıq yarımstansiya tikilib.

İİTKM-in sektor müdiri əlavə edib ki, geri qayıdan əhali üçün bank, sığorta və maliyyə xidmətlərinə çıxış imkanını genişləndirmək məqsədilə regionda fəaliyyət göstərən bank filiallarının sayı ümumilikdə 6-ya çatdırılıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə azad edilmiş ərazilərdə banklar və "Azərpoçt" tərəfindən quraşdırılmış POS-terminalların sayı 904 ədəd təşkil edib.

# Sumqayıt Kimya Sənaye Parkında elektrik mühərrikli avtobusların istehsalı müəssisəsi fəaliyyətə başlayacaq

Cari ildə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında Çinin BYD şirkəti tərəfindən elektrik mühərrikli avtobusların istehsalı müəssisəsinin fəaliyyətə başlaması nəzərdə tutulur.

Agentlikdən bildirilib ki, artıq şirkətin istehsalı üçün lazımi infrastruktur qurulub, yaxın günlərdə isə istehsal xəttinin quraşdırılmasına start veriləcək, işlərin aprel ayında yekunlaşdırılması planlaşdırılır. May ayından etibarən isə ilk elektrikli avtobusların sənaye üsulu ilə yığımına başlanılacaq.

İllik istehsal gücü 500 ədəd elektrik avtobusu təşkil edəcək müəssisədə ilkin mərhələdə bir istehsal xəttində 5 ədəd avtobusun yığımı həyata keçiriləcək.

Növbəti ildən etibarən lokallaşdırma işlərinin daha da dərinləşdirilməsi və 2030-cu ilə qədər BYD markalı elektrik avtobuslara olan tələbatın 40 faizinin lokallaşdırılma hesabına ödənilməsi nəzərdə tutulur. İnvestisiya dəyəri 29 milyon manat təşkil edən layihə çərçivəsində 600 nəfər işlə təmin olunacaq.



# "RUSİYA BUNA GÖRƏ AÇIQLAMA VERMƏLİDİR"

***Ötən ilin dekabrında Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus sərnişin təyyarəsinin vurulmasında bütün sübutlar Rusiyanın günahkar olduğunu təsdiqləsə də, o, hələ də bunu qəbul etmir, üstəlik bu ölkənin mediası və deputatları tərəfindən Azərbaycan qarşı qeyri-etik ifadələr səslənir. Bunun nəticəsi kimi də Rusiya Dövlət Dumasının bir deputatının Azərbaycana girişi qadağa edilib.***

**Bəs Rusiya öz səhvini etiraf edib təhdid kampaniyasından geri addım atacaqmı?**



Mövzu ilə bağlı Redaktor.az-a danışan alim, iqtisad elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Milli Məclisin deputatı Ziyad Səmədzadə bildirib ki, Rusiya Azərbaycanla olan zəngin tarixinə görə açıqlama verməlidir:

"Azərbaycan-Rusiya münasibətlərinin zəngin tarixi var. Uzun illər əməkdaşlıq etmişik və bu əməkdaşlıq sürətlə inkişaf edirdi. İqtisadi əlaqələr güclənib. Lakin təyyarə qəzasından sonra bu dayandı. Çox təəssüf ki, Rusiyanın müəyyən dairələri Azərbaycanın haqlı suallarına cavab verməkdən çəkindi. Hətta bizim ünvanımıza müəyyən xoşagəlməz sözlər deyildi. Mən bir ziyalı kimi, uzun illər Azərbaycan cəmiyyətində söz sahibi olan bir insan kimi bildirmək istəyirəm ki, Rusiyanın müəyyən dairələrinin təyyarə qəzası ilə əlaqədar mövqeyi qətiyyən qəbuledilməzdir. Azərbaycan dövləti müstəqil bir dövlətdir. Açıq-aşkar sübut olunur ki, bu təyyarəmizə qarşı cinayət törədilib. Mən əminəm ki, müəyyən dairələr öz səhvlərini başa düşəcəklər. Çünki Azərbaycan-Rusiya əlaqələri ildən-ilə genişlənib və strateji tərəfdaşlıq əldə olunub".

**Deputatın fikrincə, Azərbaycana qarşı çirkli əllərini uzadanlar istədiklərinə nail ola bilməyəcəklər.**

*"Azərbaycan Respublikasının Prezidentinin mövqeyi prinsipial, xalqın maraqlarına, millətimizin suverenliyinin tələblərinə tam cavab verən bir mövqedir. Mən əminəm ki, Rusiya öz səhv addımlarından geri çəkiləcək. Çünki dünya, aparıcı təşkilatlar, bunu yoxlayan komissiyalar hər şeyi gördü. Azərbaycan dövlətinin başçısının müəyyən etdiyi mövqeyi bəyənir, müdafiə edirik. Çünki Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycanın suverenliyi, iqtisadi təhlükə, milli təhlükəsizliyə qarşı bizə edilən hər hansı bir fikrə qarşı onun mövqeyi prinsipialdır. Azərbaycanı istəməyən dairələr, Ermənistana həmişə lobbiçilik edən insanlar bu gün də çirkin əməllərini davam etdirirlər, amma bu, onlara nəsib olmayacaq. Azərbaycanın haqq səsi var və bu haqq səsi qalib gələcək"*, - deyə Ziyad Səmədzadə bildirib.

# Nəqliyyat sahəsində əməkdaşlığın əsas istiqamətləri müzakirə edilib

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov Gürcüstana səfəri çərçivəsində bu ölkənin Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili ilə görüşüblər.

Gürcüstanın İqtisadiyyat Nazirliyindən bildirilib ki, görüş zamanı tərəflər Gürcüstan və Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlıq məsələlərini və gələcək prioritetləri, həmçinin həyata keçirilən layihələri müzakirə ediblər.

Söhbət zamanı Orta Dəhlizin artan rolu və onun rəqabət qabiliyyətinin artırılması və əlavə yüklərin cəlb edilməsi istiqamətində tərəflərin fəal iştirakı ilə həyata keçirilən tədbirlərə xüsusi diqqət yetirilib. Qeyd edilib ki, bu, ölkələrə daha çox əlavə dəyər yaratmağa imkan verəcək.

Tərəflər Gürcüstan və Azərbaycan arasında bu il mayın 1-dən fəaliyyətə başlaması nəzərdə tutulan dəmir yolu ilə sərnişin daşınması məsələsini də müzakirə ediblər. Görüşdən sonra Azərbaycan nümayəndə heyətinin üzvləri Tbilisinin mərkəzindəki Heydər Əliyev Parkında Ulu Öndərin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

# Aktiv istehlakçı modeli Azərbaycanda bərpa olunan enerjidən istifadənin inkişafına töhfə verəcək



Energetika Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə bərpa olunan enerji sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri üçün kiçik həcmli yaşıl enerji istehsalının, başqa sözlə aktiv istehlakçının dəstəklənməsi mövzusunda məlumatlandırıcı tədbir keçirilib.

Nazirlikdən bildirilib ki, tədbirin əsas məqsədi fiziki və hüquqi şəxslərin öz fərdi bərpa olunan enerji sistemlərini qurmaq və istehsal etdikləri artıq enerjini şəbəkəyə ötürmək imkanları barədə məlumatlılığı artırmaq olub.

Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (BOEMDA) direktoru Cavid Abdullayev yaşıl enerji keçidinin iqtisadi, sosial və ekoloji cəhətdən vacibliyini vurğulayaraq aktiv istehlakçı modelinin Azərbaycanda bərpa olunan enerjidən istifadənin inkişafına töhfə verəcəyini bildirib.

Daha sonra BOEMDA və "Azərişıq" ASC-nin mütəxəssisləri aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqinə dair qanunvericiliyin tələbləri, həmçinin texniki məqamlara dair təqdimatlarla çıxış ediblər.

# Horadiz-Ağbənd dəmiryol xəttində ikinci tunelin qazma işləri yekunlaşıb

Horadiz–Ağbənd dəmiryol xəttində həyata keçirilən tikinti işlərinin 62 faizi tamamlanıb.

"Azərbaycan Dəmir Yolları" QSC-dən (ADY) bildirilib ki, ox üzrə uzunluğu 110,4 kilometr olan yolun 104 və 106-cı kilometrlərində dəmiryol tunelləri inşa olunur. Tunellərdən biri (104-cü kilometr) müstəqil Azərbaycanın tarixinin ilk, digəri isə (106-cı kilometr) ölkənin ən uzun dəmiryol tunelidir. 106-cı kilometrində uzunluğu 1071 metr olan tuneldə artıq qazma işləri yekunlaşıb və bununla tunel tikintisinin 65 faizi tamamlanıb. Qazma işlərindən sonra tuneldə izolyasiya və üzləmə işləri yerinə yetiriləcək.

Qeyd edək ki, Horadiz-Ağbənd dəmiryol xətti Avrasiya nəqliyyat bağlantısının mühüm komponenti olacaq Zəngəzur dəhlizinin bir hissəsi kimi həm Naxçıvanla birbaşa əlaqəni təmin edəcək, həm də Azərbaycanın beynəlxalq nəqliyyat xəritəsindəki mövqeyini daha da gücləndirəcək.

# AMB ilə İslam İnkişaf Bankı arasında əməkdaşlıq müzakirə olunub

Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov Səudiyyə Ərəbistanı Krallığına işgüzar səfər çərçivəsində İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Əl-Casir ilə görüşüb. AMB-dən bildirilib ki, görüşdə İslam maliyyəsi və sukuk emissiyası sahəsində əməkdaşlığın genişləndirilməsi, həmçinin texniki yardımlar vasitəsilə bu istiqamətdə ölkədə potensialın artırılmasının təşviq olunması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# Vergi xidmətinin 25 illiyinə həsr olunmuş forum keçirilib

***İqtisadiyyat Nazirliyində "Vergi xidməti – 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda Forum təşkil olunub. Tədbirdə İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin rəhbərliyi, dövlət qurumlarının nümayəndələri, millət vəkilləri, sahibkarların ictimai birliklərinin təmsilçiləri, ekspertlər, iş adamları iştirak ediblər.***

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Vergi Xidməti – 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarına məktubunu oxuyub. Məktubda bildirilir: "Vergi Xidməti – 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarını salamlayır və Dövlət Vergi Xidməti işçilərini peşə bayramı münasibətilə təbrik edirəm.

***2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu il Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümüdür. Respublikamızın ali Qanununun müddəaları dövlətimizin müstəqilliyinin əsaslarını və xalqımızın iradəsini əks etdirərək ölkəmizin demokratik və hüquqi dövlət quruculuğu istiqamətində inamla irəliləməsi üçün zəmindir.***

Konstitusiyamızda vətəndaşların əsas vəzifələrinə aid edilmiş mühüm müddəalardan biri onun 73-cü maddəsində əks olunub: "qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur". Konstitusiyamızda vergilərə dair müəyyən edilmiş bu müddəa dövlətimizin maliyyə sabitliyinin və davamlı inkişafının təminatı olub, ölkəmizin hüquqi və iqtisadi inkişafı yolunda möhkəm təməl yaradır.

Azərbaycan yüksək inkişaf potensialına malik dinamik bir iqtisadiyyata sahibdir. Biz böyük infrastruktur layihələrini icra edir, müxtəlif sahələrdə rəqabət qabiliyyətini artırmağa yönəlmiş islahatlar həyata keçirir, dayanıqlı və innovativ iqtisadiyyat qurmaqla yanaşı, xarici investisiyaları cəlb edir və yerli istehsalın gücləndirilməsi istiqamətində mühüm addımlar atırıq. Uğurlarımız dayanıqlı iqtisadi artımın sürətini artırmaqla yanaşı, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Bizim yolumuz davamlı inkişafa və şəffaf idarəetməyə əsaslanır.

Hazırda başlıca hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" yaxın gələcəkdə inkişaf konsepsiyamızın əsasını təşkil edir. Davamlı güclənən rəqabətqabiliyyətli iqtisadiyyatın, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması, ölkəmizin rəqabətli insan kapitalına söykənən müasir innovasiyalar məkanına və "yaşıl artım" ölkəsinə çevrilməsi, işğaldan azad edilmiş ərazilərimizin yenidən məskunlaşdırılması qarşımızda duran əsas prioritetlərdir. Bu milli prioritetlərin hər biri qarşılıqlı və əlaqəli şəkildə icra edildikdə yüksək nəticələr verəcəkdir.

Bu məqsədlərin reallaşdırılmasının təməlində dövlətin iqtisadi qüdrəti, gəlirləri, fiskal dayanıqlığı durur. Güclü maliyyə imkanlarının formalaşdırılmasına isə effektiv vergi sistemi töhfə verə bilər. Maliyyə imkanlarımızın ildən-ilə artması, büdcə gəlirlərimizin fiskal dayanıqlığı prosesində effektiv və proaktiv vergi siyasətinin həyata keçirilməsi olduqca vacibdir. Vergi sistemində aparılan islahatlar, vergi inzibatçılığında tətbiq olunan yeni yanaşma və mexanizmlər iqtisadiyyatda şəffaflaşmanı keyfiyyətcə yeni bir mərhələyə qaldırıb. Bu gün vergi siyasəti həm aktiv iqtisadi tənzimləmə vasitəsi, həm də stimullaşdırıcı alətdir. Hazırda bütün fiskal yığımların əhəmiyyətli hissəsini məhz vergi orqanları təmin edir.









Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı üçün möhkəm təməl yaradıb. Bu ərazilərdə infrastrukturun bərpası, yeni sənaye və kənd təsərrüfatı sahələrinin yaradılması istiqamətində atdığımız addımlar, regionun milli iqtisadiyyata reinteqrasiyası gələcəkdə əhəmiyyətli irəliləyişlərə səbəb olacaq. İqtisadiyyatın diversifikasiyası və yerli əhalinin sosial rifahının təmin edilməsi bu ərazilərin sürətli inkişafını təmin edəcək, Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin ümumi iqtisadi potensialına mühüm töhfələr verəcəkdir.

Bu prosesdə vergi siyasətinin və vergi təşviq alətlərinin də böyük rolu var. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün uzunmüddətli vergi və gömrük güzəştləri müəyyən edilib. Ərazi bütövlüyümüzün tam bərpa edilməsi xarici investorların da ölkəmizə marağını artırır. Uzun illərdir Azərbaycanda müsbət sərmayə iqlimi mövcuddur, investisiyaların adambaşına düşən həcminə görə biz qabaqcıl ölkələr sırasındayıq. Bununla belə, regionda iqtisadi dayanıqlığın təmin olunması, investisiyaların əhatə dairəsinin daha da genişlənməsi üçün biz daha cəlbedici biznes və vergi mühiti yaratmalıyıq. Sahibkarlara güclü dəstək verilməlidir, süni maneələr aradan qaldırılmalıdır. Dövlətin tənzimləyici qurumlarının əsas vəzifəsi ölkədə biznesin genişlənməsinə, büdcəyə vergi ödəyən güclü orta və iri sahibkarlar təbəqəsinin formalaşmasına istiqamətlənməlidir. Biz qüdrətli dövlət qururuq, belə dövlətin vətəndaşı isə vergi ödəməkdən qürur duymalıdır.

***Vergi sistemi ölkəmizin inkişafında müstəsna rol oynayır və vergi işçiləri həm də dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində mühüm funksiya yerinə yetirirlər. Vergi işçiləri yalnız büdcə gəlirlərinin təminatçısı deyil, həm də iqtisadi sabitliyin və sosial ədalətin qorunması işində önəmli bir missiyanın icraçısıdırlar. Fəaliyyətiniz dövlət büdcəsinin formalaşdırılmasında, eyni zamanda iqtisadi və sosial layihələrin həyata keçirilməsində xüsusi rol oynayır. Vergi ödəyiciləri ilə effektiv əməkdaşlıq, vergi ödəmələrinin düzgün və vaxtında həyata keçirilməsi yalnız iqtisadiyyatı deyil, həm də xalqın dövlətə olan etimadını gücləndirir.***

Ölkəmizin qarşısında duran hədəf və vəzifələr çoxdur. Bu yolda sizin öz işinizə münasibətiniz və vətənə sədaqətiniz bizim üçün qiymətli sərvətdir. Əminəm ki, bu şərəfli vəzifəni yüksək səviyyədə yerinə yetirməkdə və ölkəmizin daha da qüdrətlənməsinə töhfə verməkdə davam edəcəksiniz.

Dövlət Vergi Xidmətinin bütün kollektivinə möhkəm cansağlığı, peşə fəaliyyətində uğurlar diləyirəm. Sizi bir daha təbrik edir, ölkəmizin inkişafı və rifahı yolunda atdığınız hər bir addımda müvəffəqiyyətlər arzulayıram!"

Forumda Azərbaycanın vergi orqanlarının 25 illik fəaliyyəti barədə film nümayiş olunub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov tədbirdə çıxış edərək vergi işçilərini xidmətin 25 illiyi və peşə bayramı münasibətilə təbrik edib. Diqqətə çatdırılıb ki, vergi siyasəti iqtisadiyyatın səmərəliliyinə böyük təsir göstərir.

Qeyd edilib ki, vergi xidməti təkcə fiskal orqan deyil, həm də biznes mühitinin inkişafını dəstəkləyən, şəffaflığa töhfə verən, sahibkarlarla səmərəli tərəfdaşlıq münasibətlərinə malik qurumdur. Son illərdə qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının artması və onların ümumi iqtisadiyyatda xüsusi çəkisinin yüksəlməsi bunun əyani göstəricisidir.

Bildirilib ki, iqtisadi gündəliyin əsas prioritetlərindən biri dayanıqlı inkişaf və özəl sektorun gücləndirilməsidir. Özəl sektorun inkişafı ilə yanaşı, son illər aparılan islahatlar nəticəsində dövlət müəssisələrinin rentabelliyinin artdığı qeyd olunub. Həmin müəssisələr risklərdən biri kimi qiymətləndirilən borc yükünü və dövlət büdcəsindən asılılığı azaldıb. Bununla yanaşı, dayanıqlı iqtisadi artımı və fiskal sabitliyi təmin etmək üçün ixracyönümlü sahə və xidmətlərin təşviqinin önəmi bildirilib.



Forumda 2018-2024-cü illərdə ölkəmizin makroiqtisadi artımı, eləcə də qeyri-neft sektorunun böyüməsi, vergi daxilolmalarının qeyri-neft ÜDM-də xüsusi çəkisinin yüksəlməsi, əmək müqavilələrinin sayının artması və digər göstəricilər barədə təqdimat nümayiş etdirilib.

Tədbirdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva vergi ödəyicilərinin hüquqları və vergi orqanlarının fəaliyyətində şəffaflığın və hesabatlılığın əhəmiyyəti barədə danışıb.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Dövlət Gömrük Komitəsi ilə Dövlət Vergi Xidməti arasında səmərəli əməkdaşlığı vurğulayıb. Bu istiqamətdə vahid risk platforması çərçivəsində tərəfdaşlığın önəmi qeyd edilib.

Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev vergi orqanlarının ölkə iqtisadiyyatının inkişafına və sahibkarların fəaliyyətinin asanlaşdırılmasına verdiyi töhfələrdən danışıb.

Tədbirdə Dövlət Vergi Xidmətinin əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların nümayəndələrinin - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının baş katibinin müavini Fabrisiya Lapekorella, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının icraçı katibi Aliks Perrinyon və Vergi Məqsədləri üzrə Şəffaflıq və Məlumat Mübadiləsinə dair Qlobal Forumun Katibliyinin rəhbəri Zayda Manattanın videotəbrikləri səsləndirilib.

Forumda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli çıxış edib. Xidmət rəisi 25 illik tarixə nəzər salaraq vergi sistemində reallaşdırılan islahatlar barədə danışıb, bu sahədə son illər əldə edilən nəticələr, "Dövlət Vergi Xidmətinin 2025-2028-ci illər üzrə Strategiyası", gələcək vergi siyasətinin istiqamətləri və s. barədə məlumat verib. Bildirilib ki, 25 illik tarixə malik vergi sistemi hazırda "kölgə iqtisadiyyatı" ilə mübarizə, iqtisadiyyatda şəffaflığın artırılması, haqlı rəqabətin qorunması, intizamlı vergi ödəyicilərinə fərqli münasibət göstərilməsi, dövlətin vergi tənzimləmə alətlərindən fəal istifadəsi, sahibkarlığın dəstəklənməsi kimi yeni yanaşmalarla fəaliyyət göstərir. 2024-cü ildə vergi daxilolmalarının həcminin 15,8 milyard manatı keçdiyi, vergi gəlirlərinin 2019-cu ilin əvvəli ilə müqayisədə 2,1 dəfədən çox artdığı, Dövlət Vergi Xidmətinin xətti ilə toplanan fiskal yığımların 22,8 milyard manat təşkil etdiyi, Xidmətin bütün fiskal yığımların 77 faizindən çoxunu təmin edən orqan olduğu diqqətə çatdırılıb. Aktiv vergi ödəyicilərinin sayı isə 2019-cu illə müqayisədə 1,8 dəfə artaraq 2024-cü ildə 806,9 min təşkil edib.

Forumun işi sessiyalarla davam edib. Moderatoru Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov olan "Müasir vergi sistemi: strateji hədəflər və perspektivlər" mövzusuna həsr olunmuş sessiyada iqtisadiyyat nazirinin müşaviri Elvin Camalov, Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva və "McKinsey" şirkətinin partnyoru Simay Erdoğan çıxış ediblər.

Moderatoru "Deloitte Azerbaijan" şirkətinin vergi üzrə partnyoru Nərmin Aslanova olan "Vergi inzibatçılığında rəqəmsal transformasiya: yeni yanaşmalar və müasir trendlər" mövzusuna həsr olunmuş ikinci sessiyada Dövlət Vergi Xidmətinin rəis müavini Emil Qarayev, Azərbaycan Beynəlxalq Bankının Agile ofisinin rəhbəri Həsən Eminov, "Carlsberg" Azərbaycan şirkətinin Korporativ əlaqələr üzrə rəhbəri Lalə Əfəndi çıxış ediblər.

***Moderatoru ADA Universitetinin prorektorunun müşaviri Aygün Hacıyeva olan "Yeni iqtisadi inkişaf modelində dövlət – biznes tərəfdaşlığının əhəmiyyəti" mövzusunda sessiyada isə bp-nin vergi məsələləri üzrə meneceri Ceyhun Məmmədov, Dövlət Vergi Xidmətinin baş idarə rəisi Nicat İmanov, PwC şirkətinin vergi direktoru Günel Sadiyeva çıxış ediblər.***

Sessiyalarda müzakirələr aparılıb, suallar cavablandırılıb. Çıxışlarda ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin dəstəklənməsi, iqtisadi idarəetmənin yeni çağırışlara uyğun həyata keçirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər müsbət qiymətləndirilib, islahatlara dair təkliflər səsləndirilib.

Forum çərçivəsində "Yaşıl enerji üzrə ən böyük investor", "İşğaldan azad olunmuş ərazilər üzrə investor", "Dövlət sektoru üzrə fəal ixracatçı", "Özəl sektor üzrə fəal ixracatçı", "Bank və sığorta sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Nəqliyyat sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Sənaye sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Xidmət sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Qeyri-neft sektoru üzrə vergi rekordçusu", "Neft sektoru üzrə vergi rekordçusu", "Regionlar üzrə vergi rekordçusu", "Kənd təsərrüfatı sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Rabitə sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Ticarət sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Tikinti sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Fəal ianəçi", "Dost" nominasiyaları üzrə fərqlənən vergi ödəyiciləri sertifikatlarla təltif olunublar.

# Qeyri-neft-qaz sektorundan daxilolmalar 11,6 faiz artıb

2025-ci ilin yanvar ayında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 2 milyard 259,9 milyon manatdan çox vergi daxil olub.

Qeyri-neft-qaz sektorunda daxilolmalar 1 milyard 378,2 milyon manata yaxın təşkil edib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 143,2 milyon manat və ya 11,6 faiz artıb.

Ödənilən vergilərin 61 faizi qeyri-neft-qaz sektorunun, 39 faizi isə neft-qaz sektorunun payına düşüb.



# Ötən ay istehlakçılara 17 milyon manatdan çox ƏDV geri qaytarılıb

Cari ilin yanvar ayı ərzində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 17,5 milyon manatdan çox hissəsi fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.

Dövlət Vergi Xidmətindən bildirilib ki, "ƏDV geri al" layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib. Bundan başqa, "ƏDV geri al" layihəsinin əhatə dairəsinin genişləndirilməsi nəticəsində fiziki şəxs olan istehlakçılar tərəfindən ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması prosesi də davam etdirilir. 2025-ci ilin yanvar ayında nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılan həcmi 3,4 milyon manatdan çox olub.

# Tramp və Makron ABŞ ilə Rusiyanın qarşıdakı danışıqlarını müzakirə ediblər

ABŞ Prezidenti Donald Tramp və fransalı həmkarı Emmanuel Makron Səudiyyə Ərəbistanında Rusiya və Amerika nümayəndə heyətlərinin qarşıdakı görüşünü müzakirə ediblər.
Siyasətçilər telefon danışığı zamanı həmçinin Ukraynadakı vəziyyəti müzakirə ediblər. Qeyd olunub ki, Tramp və Makron arasındakı söhbət təxminən 30 dəqiqə davam edib.



Xatırladaq ki, Amerika və Rusiya nümayəndə heyətləri fevralın 18-də Ər-Riyadda görüşüblər və ikitərəfli münasibətlərin bütün kompleksinin bərpası, Ukrayna nizamlanmasının müzakirəsinə hazırlıq, habelə ABŞ və Rusiya liderləri Donald Tramp və Vladimir Putinin görüşünün müzakirə ediləcəyi danışıqlar aparılıb.

# Avrozonanın xarici ticarət balansında profisit yaranıb

Avrozonada 2024-cü ilin dekabrında xarici ticarət balansının profisiti 15,5 milyard avro təşkil edib. Avropa Statistika Ofisinin (Eurostat) məlumatına görə, dekabrda Avrozonada ixracın dəyəri əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 3,1 faiz artımla 226,5 milyard avro, idxalın dəyəri 3,8 faiz artaraq 211 milyard avro olub.
Hesabat ayında Avropa İttifaqında (Aİ) isə ixracın dəyəri əvvəlki ilin eyni dövrünə görə 3,7 faiz artaraq 209 milyard avro, idxalın dəyəri 3,9 faiz artaraq 192,7 milyard avro olub. Dekabrda Aİ-də 16,3 milyard avroluq müsbət saldo yaranıb.
2024-cü il ərzində Avrozonada ticarət profisiti 176,9 milyard avro, Aİ-də isə 150,1 milyard avro təşkil edib.



# ABŞ prezidenti Ukraynada seçkilərin keçirilməsi ideyasını dəstəkləyib



ABŞ prezidenti Donald Tramp Rusiya ilə münaqişənin həlli çərçivəsində Ukraynada seçkilərin keçirilməsini düzgün hesab etdiyini bildirib.
Bu barədə o, Floridada jurnalistlərə seçkilərin keçirilməsinin zəruriliyindən danışarkən deyib.
***"Bu, Rusiyadan deyil, bizdən və digər tərəflərdən irəli gəlir"***, - deyə ABŞ prezidenti bildirib.
Onun fikrincə, Ukraynada "insanlar yorulub və bəzi dəyişikliklər istəyir".
***"Onların seçkiləri olmayıb, ölkədə mahiyyətcə hərbi vəziyyət hökm sürür, onların liderinin populyarlığı, təəssüf edirəm ki, 4 faiz civarındadır"***, - deyə D.Tramp əlavə edib.
Döyüşlərin nəticəsində olan dağıntılardan danışan Tramp deyib ki, Ukraynanın bir sıra şəhərləri "Qəzzaya bənzəyir".

# Fransanın qaz ehtiyatları 25%-dən aşağı düşüb

Bu barədə "Gas Infrastructure Europe" (GIE) məlumat dərc edib.
Yeraltı anbarlarda saxlanılan qazın həcminə görə Avropanın ilk beşliyinə daxil olan Fransanın YQA-da fevralın 17-nə olan göstəriciyə əsasən, təxminən 3,2 milyard kubmetr qaz qalıb. Bu, anbarlarda olan qaz səviyyəsinin anbarın dolumu baxımından 24,87% təşkil etdiyini göstərir.



Fransa ilə yanaşı, digər ölkələrdə havaların soyuq keçməsi ilə əlaqədar yeraltı qaz anbarlarındakı ehtiyatların aktiv şəkildə istifadə edir. Almaniya YQA-da bu göstərici 40,65 faiz, Avstriyada 54,27 faiz, İtaliyada 55,03 faiz, Niderlandda 29,79 faiz təşkil edir.

# Britaniyada inflyasiya səviyyəsi sürətlə artır

Cari ilin yanvar ayından başlayaraq Böyük Britaniyada inflyasiya sürətlənib.
Bu haqda "The Guardian" nəşri Britaniyanın Milli Statistika İdarəsinə istinadən məlumat yayıb.
Məlumata görə, yanvar ayında inflyasiyanın CPI göstəricisi (istehlak qiymətləri indeksi) 3 faizə yüksəlib. Hərçənd ötən ilin dekabr ayında bu göstərici 2.5 faiz təşkil edirdi.




Yerli iqtisadi təhlilçilər enerji qiymətlərinin, kommunal xərclərin və mənzil qiymətlərinin artması fonunda Britaniyada bu il inflyasiyanın 3.7 faizə qədər yüksələcəyini proqnozlaşdırır.

# Qlobal bank 2025-ci ilin sonu üçün qızıl proqnozunu yeniləyib



Qabaqcıl qlobal investisiya bankı, qiymətli kağızlar, aktivlərin və sərvətlərin idarə edilməsi üzrə ixtisaslaşan şirkət olan "Goldman Sachs", 2025-ci ilin sonuna qızıl proqnozunu 2890 dollar/unsiyadan 3100 dollar/unsiyaya yüksəldib. ***"Mərkəzi bankların artan tələbi qızıl qiymətlərini ilin sonuna qədər 9% də yüksəldəcək"***, - bank proqnozlaşdırır.
Eyni zamanda tariflər ilə (gömrük rüsumları) bağlı narahatlıqlar da daxil olmaqla siyasət qeyri-müəyyənliyi yüksək olaraq qalırsa, "Goldman Sachs" uzunmüddətli spekulyativ mövqeləşmə səbəbindən qızılın ilin sonuna qədər 1 unsiya üçün 3300 dollara yüksələ biləcəyini nəzərdə tutur.
Bank həmçinin mərkəzi bankların tələb proqnozunu əvvəlki 41 tondan ayda 50 tona qaldırıb.

# Xəzər dənizində külək elektrik stansiyalarının inşası hazırda prioritetdir

"Hazırda Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə əməkdaşlıq çərçivəsində, 240 meqavat gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının (KES) tikintisi həyata keçirilir. Layihə Abşeron-Xızı ərazisində Pirəkəşkül və Sitalçay yaxınlığındadır".
Bu sözləri Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev jurnalistlərə açıqlaması zamanı deyib. O bildirib ki, Xəzər dənizində külək elektrik stansiyalarının inşası hazırda prioritet məsələlərdən biridir.



***"Bir çox şirkət KES-lərin inşasına maraq göstərir və bu istiqamətdə danışıqlar davam edir. Növbəti mərhələdə istehsalçının seçilməsi və müqavilələrin bağlanması gündəmdədir"***, - deyə C.Abdullayev bildirib.

# Xüsusi tənzimləmə rejimində iştirakla bağlı müraciətlərin qiymətləndirilməsi başlayıb

Azərbaycan Mərkəzi Bankının (AMB) xüsusi tənzimləmə rejimində fəaliyyətin təşkili və idarə edilməsi çərçivəsində müəyyən etdiyi mərhələlər üzrə proseslər davam edir.
AMB-dən bildirilib ki, ilk mərhələnin yekunu olaraq xüsusi tənzimləmə rejimində iştirakla bağlı ümumilikdə 14 müraciət daxil olub. Daxil olan müraciətlər virtual aktivlər, kreditləşmə, eləcə də sığorta və maliyyə bazarlarının digər sahələri üzrə innovativ məhsulların sınaqdan keçirilməsi ilə bağlıdır.
Hazırda Mərkəzi Bank tərəfindən müraciətlərin ilkin qiymətləndirilməsi prosesi başlayıb. Növbəti mərhələdə müraciətlər baxılması və yekun qiymətləndirmənin həyata keçirilməsi nəzərdə tutulub. Bu mərhələdə müraciətlərin tələblərə uyğunluğu baxımından dəyərləndirilməsi aparılacaq və yekun qərar qəbul olunacaqdır.




# AÇG-nin "Mərkəzi Azəri" platformasından 1,1 milyard barel neft hasil olunub



Fevralın 18-də "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağında Çıraqdan sonra ikinci hasilat platforması olan "Mərkəzi Azəri"dən ilk neftin əldə olunmasından 20 il ötür.
AZƏRTAC bp-nin yaydığı məlumata istinadən xəbər verir ki, "Mərkəzi Azəri" ümumilikdə 152 milyon ton (1,1 milyard barel) neftlə AÇG yatağındakı bütün platformalar arasında ən yüksək hasilat göstəricisinə malikdir.
Ötən il də "Mərkəzi Azəri" bütün əməliyyatlarına təhlükəsiz və etibarlı şəkildə davam edərək il ərzində gündəlik 97 min barel orta hasilat göstəricisi ilə AÇG platformaları arasında liderliyini saxlayıb. "Mərkəzi Azəri" hasilat, qazma və yaşayış platforması ona körpü ilə birləşmiş texniki platforma olan kompressor və suvurma qurğusu ilə birlikdə Xəzərdə ən böyük dəniz komplekslərindən biridir. Bu kompleks AÇG-dəki digər platformalara və qurğulara vacib əməliyyatlar mərkəzi kimi də xidmət edir və öz qabaqcıl texniki imkanları sayəsində bütün yataqda əməliyyatların təhlükəsiz və etibarlı aparılmasını təmin edir.
Hazırda bu kompleksdə 210-a yaxın işçi çalışır ki, onların da 96 faizi azərbaycanlı mütəxəssislərdir. Platformada hazırda ümumilikdə 43 quyu istismardadır - bunlardan 28-i hasilat, 9-u qaz injektor quyusu, 5-i suvurma və biri isə şlamların laylara vurulması üçün quyudur. "Mərkəzi Azəri" dünya səviyyəli bir dəniz obyektidir.

# Azərbaycanda kənd təsərrüfatı istehsalı 2%-dən çox artıb

Bu ilin yanvar ayı üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 547,8 milyon manat təşkil edib.
Dövlət Statistika Komitəsindən Trend-ə verilən məlumata görə, onun da 518,7 milyon manatı heyvandarlıq, 29,1 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.
Əvvəlki ilin müvafiq ayı ilə müqayisədə kənd təsərrüfatının istehsalı 2,2%, o cümlədən heyvandarlıq məhsulları üzrə 1,3%,



bitkiçilik məhsulları üzrə 20,8% artıb.
2025-ci ilin yanvar ayında quş əti də daxil olmaqla, diri çəkidə 47,3 min ton ət, 159,7 min ton süd, 193,7 milyon ədəd yumurta istehsal edilib. 2024-cü ilin müvafiq ayına nisbətən ət istehsalı 2%, yumurta istehsalı 2,9% artıb, süd istehsalı isə 0,6% azalıb. Ölkənin digər rayonlarına nisbətən Abşeron, Şəmkir, Xəzər, Salyan, Binəqədi, Sabunçu, Kürdəmir, Tovuz, Samux və Sabirabad rayonlarının istixana təsərrüfatlarında daha çox məhsul yetişdirilib. Yanvar ayında respublikada 25,5 min ton tərəvəz toplanıb.

# "AzerGold" QSC-də növbəti qanvermə aksiyası keçirilib




"AzerGold" QSC-də irsi və qazanılmış qan xəstəliklərindən əziyyət çəkən uşaqlara dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə növbəti qanvermə aksiyası təşkil edilib.
Nəcib aksiyada "AzerGold" QSC və onun törəmə şirkəti – "Daşkəsən Dəmir Filiz" MMC-nin əməkdaşları könüllü olaraq iştirak edərək, qan veriblər.
Milli Hematologiya və Transfuziologiya Mərkəzinin xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən əvvəlcə hər bir donorun sağlamlığı müvafiq tibbi müayinə ilə yoxlanılıb, daha sonra onlardan qan götürülüb.
Toplanan qan ehtiyatı laboratoriya şəraitində yoxlanılaraq, talassemiya, hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqların müalicəsində istifadə olunacaq.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500